**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№** 3-44/3-9-10/2024

**Bakı şəhəri** **"25" iyul 2024-cü il**

**Karantin tətbiq edilən zərərli orqanizm aşkar edilmiş bağlarda bitki mühafizəsi tədbirlərinin görülməsi haqqında**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) Şəki-Zaqatala regional bölməsinin Bitki sağlamlığı və fitosanitar nəzarəti sektorunun əməkdaşları tərəfindən Zaqatala rayonunun Aşağı Tala (82.42 ha) və Dağlı (253.6 ha) kəndlərində yerləşən hüquqi şəxs "Agrarco" MMC-yə məxsus fındıq bağlarında (bundan sonra – sirayətlənmiş sahələr) fitosanitar müşahidələr aparılmış, sirayətlənmə əlamətləri olan bitkilərdən götürülmüş nümunələr laborator müayinələrə cəlb edilmişdir. Laborator ekspertizanın nəticələrinə uyğun olaraq, 2024-cü il 8 iyul tarixli AZ-19030134/LAB03-24042-T-042 nömrəli və 2024-cü il 12 iyul tarixli AZ-19030134/LAB03-24042-T-041 nömrəli sınaq protokollarına əsasən, götürülən nümunələrdə karantin tətbiq edilən fındıqda bakterioz (*Xanthomonas campestris pv. corylina*) xəstəlik törədicisinin mövcudluğu təsdiqlənmişdir.

Qeyd olunanlara əsasən, bitki və bitkiçilik məhsullarında zərərli orqanizmlərin kütləvi yayılmasının qarşısının alınmasına, xəstəliklərin aradan qaldırılmasına, məhsul itkisinə yol verilməməsinə, ətraf mühitin və əhalinin sağlamlığının qorunmasına yönəldilmiş bitki mühafizəsi tədbirlərinin həyata keçirilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-12-ci yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** Agentliyin Şəki-Zaqatala regional bölməsinin Bitki sağlamlığı və fitosanitar nəzarəti sektorunun əməkdaşlarına tapşırılsın:

1.1. Zaqatala rayonu ərazisində fındıqda bakterioz xəstəliyi ilə yoluxmuş ərazilərin sərhədləri müəyyən edilsin;

1.2. sirayətlənmiş sahələrdən əkin materiallarının götürülməsinə və digər təsərrüfatlarda əkilməsinə və ya calaq məqsədilə istifadəsinə icazə verilməsin.

**2.** Zaqatala rayonunun Aşağı Tala və Dağlı kəndlərində yerləşən hüquqi şəxs "Agrarco" MMC-yə məxsus meyvə bağları ən azı 3 (üç) il ardıcıl olaraq Milli Monitorinq Planına daxil edilsin və

digər zərərli orqanizmlərlə yanaşı, fındıqda bakterioz xəstəliyinə görə də laborator müayinələrə cəlb edilsin.

**3.** Yeni bağlar salınarkən müvafiq parametrə görə laborator müayinələrə cəlb edilmiş sağlam tinglərdən istifadə edilsin və əkin payızda aparılsın.

**4.** Sirayətlənmiş budaqlar yoluxmuş hissənin 60-100 sm alt hissəsindən kəsilərək bağdan çıxarılsın və yandırılaraq məhv edilsin. Budama zamanı bir koldan digərinə keçərkən budama alətləri 10%-li natrium-hipoxlorid və yaxud 50%-li lizol məhluluna salınaraq dezinfeksiya edilsin.

**5.** Sirayətlənmiş sahədə istifadə edilən texnika və alətlər təmizlənərək dezinfeksiya edildikdən sonra digər sahələrdə istifadəsinə icazə verilsin.

**6.** Payızda yerə tökülən yarpaqlar və bitkinin digər hissələri təmizlənərək sahədən çıxarılsın və məhv edilsin.

**7.** Gübrələmə və becərmə işləri vaxtında və düzgün həyata keçirilsin.

**8.** Kimyəvi mübarizə fındıq ağaclarının xəstəliyə həssas olduğu 3 dövrdə – məhsul yığımından sonra, yarpaqların töküldüyü vaxt və erkən yazda 1%-li Bordo məhlulundan (0,3% yapışdırıcı əlavə olunmaqla) istifadə etməklə aparılsın, 1-ci çiləmə avqustun sonu-sentyabrın əvvəlində, 2-ci çiləmə yarpaqların 75%-nin töküldüyü dövrdə, 3-cü çiləmə isə erkən yazda tumurcuqların açıldığı dövrdə və küləksiz havada ağacı yaxşı isladacaq səviyyədə həyata keçirilsin.

**9.** Bu Qərarın icrasına nəzarət Agentliyin Şəki-Zaqatala regional bölməsi tərəfindən həyata keçirilsin.

**10.** Bu Qərarın icrasından yayınan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

**11.** Agentlik Aparatının Bitki sağlamlığı və bioloji təhlükəsizlik şöbəsi bu Qərarın aidiyyəti üzrə göndərilməsini təmin etsin.

**Bitki sağlamlığı və bioloji təhlükəsizlik**
**şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət fitosanitar müfəttişi** **Taleh Şəmiyev**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi * Food Safety Agency of the Republic of Azerbaijan *
Baş Dövlət Fitosanitar Müfəttişi
Chief Phytosanitary Officer